

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 noyabr 2021-ci il №91 (2599) https://mod.gov.az Qiymətı 30 qəpik


*Döyüş hazırlığı*

## Yeni qələbələr qazanmağa hər an hazırıq!



Rəşadətli ordumuz ölkəmizin qüdrətinin nümunəsi, xalqımızın iftixar yeri, müstəqilliyimizin qarantıdır. Əbədiyaşar komandan Heydər Əliyevin banisi olduğu ordumuz, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatların nəticəsində döyüş qabiliyyətinin artırılmasını uğurla təmin edib. Ölkə başçısı ordu quruculuğu prosesini sürətlə davam etdirir, müasir hərbi texnikalar alınır, döyüş qabiliyyəti daha da artırılır. Görülən tədbirlərin nəticəsində ordumuzun müasir döyüş standartlarına uyğun modernləşdirilməsi baş verib. Hal-hazırda dünyanın ən güclü 50 ordusu sırasında olan Azərbaycan Ordusunun arsenalı ən müasir silah və döyüş texnikaları ilə zəngindir. Dünyanın ən güclü ordularında olan artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri və zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları Azərbaycan Ordusunun qoşun növlərinin silahlanmasında yer alır. Hissə və bölmələrimiz müasir zirehli tank texnikaları, müxtəlif təyinatlı təmir-təxliyə maşınları ilə təmin olunub. Bundan başqa, ən qabaqcıl ölkələrin istifadə etdiyi hava hücumundan müdafiə sistemləri ölkəmizin hava məkanını etibarlı şəkildə qorumaqdadır. Ordu quruculuğuna göstərilən diqqət və qayğının nəticəsidir ki, ordumuz 44 günlük Vətən müharibəsində yüksək döyüş hazırlığı, peşəkarlıq nümayiş etdirərək inamlı Qələbə qazandı. Bu zəfər ordumuzun qüdrətini bir daha nümayiş etdirdi.

Rəşadətli ordumuzun bütün bölmələrində döyüş hazırlığının artırılması istiqamətində işlər bu gün də sürətlə davam etdirilir. Hərbi xidmətə çağırılan gənclər səmərəli təşkil olunan dərslərdə və təlimlərdə bacarıqlı, yüksək döyüş qabiliyyətli əsgərlər kimi formalaşırlar. Artilleriya hərbi hissələrindən birində şahidi olduğumuz dərs prosesi ordumuzda hazırlıqlı kadrların, bacarıqlı əsgərlərin xidmət etdiyinin sübutu oldu. Həm də onun göstəricisi oldu ki, bölmələrdə plana uyğun olaraq bütün dərslər yüksək səviyyədə keçirilir, şəxsi heyətin döyüş qabiliyyəti və bacarığı daim artırılır.

Hərbi hissə ötən il "Dəmir yumruq" əməliyyatında şərəfli döyüş yolu keçib və ərazilərimizin işğaldan azad olunmasında əhəmiyyətli rol oynayıb. Qərargahdakı şəhid döyüşçülərin xatirə lövhəsi də buradan keçən hər kəsə bir anlığa ötən müharibə dövrünü xatırladır. Vətən müharibəsində qızğın hərbi əməliyyatların getdiyi dövrdə də bu hərbi hissənin hərbi qulluqçuları ilə bir arada çox olurdum, döyüşçülərimizin uğurlu hərbi əməliyyatlarından, fədakarlıq nümunələri göstərən əsgər və zabitlərimizdən yazaraq onları oxuculara tanıdırdım.

Döyüş hazırlığı ilə seçilən hərbi bölmələrdən yazılar hazırlayacağımı bildirəndə zabit Mail Allahverdiyev söhbətimizdə artilleriya divizionunun da adını çəkdi və qeyd etdi ki, ötən ilin nəticələrinə görə fərqlənənlər arasında topçuların da öz yeri var. Zabitlə döyüş xatirələrindən danışa-danışa diviziona gəldik. Burada şəxsi heyət məşğələyə cəlb edilibdi. Ənənəvi olaraq top komandiri tərəfindən heyətin təlimatlandırılması başlanır və sonra hər kəs vəzifə bölgüsünə uyğun olaraq üzərinə düşən tapşırığı icra edirdi. Zabit Mail Allahverdiyev bildirdi ki, bölmələrdə plana uyğun olaraq keçirilən kompleks dərslər zamanı şəxsi heyətin döyüş qabiliyyəti və bacarığı durmadan artırılır. İzlədiyimiz dərs prosesi təcrübəli zabitin dediklərinin bir daha təsdiqi olur. Şəxsi heyətin hər birinin verilən tapşırıqların öhdəsindən bacarıqla gəldiyini görürük. Hiss olunur ki, artilleriya bölməsi gündəlik olaraq taktiki təlimləri davam etdirir, bu sahədə nəzəri-təcrübi hazırlığını mütəmadi olaraq artırır. Məşğələ başa çatdıqdan sonra heyət üzvləri ilə söhbətləşirəm.

Məşğələyə rəhbərlik edən baş leytenant Fəryad Hacıyevlə həmsöhbət oldum. Fəryad Hacıyev 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini artilleriya ixtisası üzrə bitirib. Uğurlu xidmət yolu keçən zabit işğalda olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə" görə medallarına layiq görülüb. Fəryaddan öyrəndim ki, hal-hazırda batareya mövzuya uyğun tapşırıqları icra edir. O, şəxsi heyətin "döyüşə" və "səfərə" getmə, hədəfləri tuşlama normativlərini yerinə yetirdiyini bildirdi.

(Ardı 5-ci səhifədə)



Şəhidlərin xatirəsinə həsr olunan tədbirlər keçirildi

3-cü səhifədə



“Şəhid ailələrinə ehtiramla yanaşmalıyıq...”

4-cü səhifədə



Şəxsi heyətin sağlamlığı döyüş hazırlığına bilavasitə təsir göstərir

7-ci səhifədə



Sən heç solma, həmişə var ol, Xarı bülbül!

8-ci səhifədə

# Müdafiə naziri Serbiyanın ölkəmizdə yeni təyin olunan səfiri ilə görüşüb

Noyabrın 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviç ilə görüşüb.

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Serbiya arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətindəki işlərində uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının xüsusi rolu vurğulanaraq bir çox istiqamətlərdə olduğu kimi, hərbi sahədə də əlaqələrin uğurla davam etdirildiyi bildirilib.



Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən diplomat Azərbaycan-Serbiya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib. Səfir, Vətən müharibəsində Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla bağlı qarşılıqlı təcrübə mübadiləsinin aparılmasını təklif edib.

Tərəflər ölkələrimiz arasındakı münasibətlər, bölgədəki hərbi-siyasi vəziyyət, eləcə də ikitərəfli hərbi əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

## Bakıda NATO-nun hərbi təhsil üzrə ekspertləri ilə işçi görüşü keçirilib



Azərbaycan Ordusunun hərbi təhsil sisteminin təlim-tədris sahələrinin inkişafına yardım üzrə NATO-Azərbaycan birgə fəaliyyət planına müvafiq olaraq müdafiə təhsilinin genişləndirilməsi proqramı çərçivəsində (DEEP) NATO-nun ekspert qrupu ilə Bakıda işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Müdafiə Nazirliyi və Alyansın hərbi təhsil mütəxəssisləri arasında keçirilən görüşdə Azərbaycan Ordusunda 2021-ci il ərzində hərbi təhsil sahəsində həyata keçirilən fəaliyyətlər müzakirə edilib. Həmçinin növbəti il üçün tədbirlərin planlaşdırılması və icrası məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, yeni perspektivlər nəzərdən keçirilib, əməkdaşlıq planları təhlil edilib.

Sonra qonaqlar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar. Burada hərbi təhsil sisteminin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, hərbi təhsilin metodologiyası üzrə bir sıra məsələlər müzakirə edilib, bu sahədə qazanılan təcrübə üzrə qarşılıqlı brifinqlər təqdim olunub.

## Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində kompleks məşq keçirilib

Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində keçirilən kompleks məşqə hava hücumundan müdafiə bölmələrinin 1 nömrəli hazırlığa gətirilərək atəş və start mövqelərini tutması ilə başlanılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin real döyüş şəraitində düşmənin hava hücum vasitələrinə qarşı peşəkarlıqla mübarizə aparmaq vərdişlərini təkmilləşdirmək üçün kompleks məşqə ordu aviasiyası da cəlb edilib.

Plana əsasən zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə hava düşməninin zərbələrinin dəf edilməsi məşq etdirilib.

Səyyar zenit-raket komplekslərinin və zenit-artilleriya bölmələrinin heyətləri çətin hava şəraitində müxtəlif hündürlük diapazonunda fəaliyyət göstərən şərti düşmənin hava hücumu vasitələrinin hücumunun qarşısının alınması və hava hücumundan müdafiə bölmələrinin mövqeyinə soxulmağa cəhd edən şərti düşmənin yerüstü hədəflərinin məhv edilməsi tapşırıqlarını yerinə yetiriblər.

Aviasiya vasitələrinə qarşı döyüş işi üzrə təlimatın və atəş qaydalarının tələblərinə uyğun fəaliyyətlərin icra olunduğu kompleks məşqin sonunda döyüş heyətlərinin iş keyfiyyəti, manevretmə qabiliyyəti və uzlaşma səviyyəsi təhlil olunaraq qiymətləndirilib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**17 noyabr 2021**

Noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun aşağıda adları göstərilən hərbi qulluqçuları şəhid olub:

- leytenant Niftəliyev Ümüd Oruc oğlu;
- gizir Cabbarov Orxan Hətəm oğlu;
- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əliyev Natiq Yusif oğlu;
- əsgər Ağayev Elçin Mərifət oğlu;
- əsgər Əlizadə Elmin Samir oğlu;
- əsgər Əliyev Elçin Ramil oğlu;
- əsgər Xəlilov Murad Qalib oğlu.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçularımızın yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

Allah rəhmət eləsin!

Döyüşlərdə 10 nəfər hərbi qulluqçumuz yaralanıb.

Noyabrın 16-sı axşam saatlarından etibarən Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyət sabitləşib.

Ermənistanın dövlət sərhədində törətdiyi təxribat və hərbi avantüra tam iflasa uğrayıb.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin suveren ərazilərində xidmətini davam etdirir.

Ermənistanın təxribatı nəticəsində yaranan gərginliyə və qarşıdurmaya görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**18 noyabr 2021**

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 17-si saat 17:54-dən 22:52-dək Şəmşəddin rayonunun Çinarlı, Muğancıq kəndləri istiqamətində yerləşən mövqelərindən Tovuz rayonunun Muncuqlu, Ağbulaq, Qoşa, Koxanəbi və Əsrik Cırdaxan kəndləri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 18-si saat 14:10-dan etibarən Şəmşəddin rayonunun Çinarlı kəndi istiqamətində yerləşən mövqelərindən Tovuz rayonunun Koxanəbi kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini heç bir səbəb olmadan növbəti dəfə atıcı silahlardan intensiv atəşə tutublar.

Cavab atəşi ilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

## Azərbaycan ilə İtaliya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



*Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və İtaliya Respublikası Baş Qərargahının nümayəndə heyətləri arasında ikitərəfli əməkdaşlıq planı üzrə qərargah görüşü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Azərbaycan Ordusu ilə İtaliya Silahlı Qüvvələri arasında cari əməkdaşlığın vəziyyəti, perspektivlər, eləcə də regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

Sonda növbəti illər üzrə ikitərəfli əməkdaşlığın sahələri və fəaliyyətlər müəyyən edilib.

Səhifəni hazırladı: İsa ELDAROĞLU

# Şəhidlərin xatirəsinə həsr olunan tədbirlər keçirildi

*Vətən müharibəsində şəhid olanların xatirəsinə həsr olunan anım mərasimlərində xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.*





Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədi ilə "Şəhidlər ölməz, Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirildi.

Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalan gizir Sadiq Xubyar oğlu Azayevin əziz xatirəsinə həsr olunan anım mərasimində Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, dostları və döyüş yoldaşları iştirak etdilər.

Şəhidin gələcək nəsillərə örnək olan qısa, lakin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx tədbir iştirakçılarına təqdim olundu.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti mayor Fikrət Səmədov çıxış edərək Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə haqq-ədalətin bərpa edilməsindən, dövlət-xalq-ordu birliyindən, vətənpərvər oğullarımızın qəhrəmanlığından, düşmən üzərində qazanılan parlaq qələbədən danışdı. Bu zəfərdə şəhidlərimizə, qazilərimizə borclu olduğumuzu qeyd etdi.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidin xatirəsinin uca tutulduğuna görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Bacısı Mələk xanım Sadiqin yoxluğunun nə qədər çətin olduğunu vurğulasa da, onun adı kimi Vətəninə, Hərbi andına sadiq olaraq şəhidlik zirvəsinə yüksəldiyindən qürur duyduğunu dedi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən musiqilər ifa etdilər.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**





Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda Ali Baş Komandanın döyüş əmri ilə başlayan Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan baş gizir Nahid Soqat oğlu Mikayılovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, döyüş yoldaşları, dostları və şəhid ailələri iştirak etdilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov şəhidlərimizə rəhmət və ailələrinə səbir dilədi. Zabit vurğuladı ki, Azərbaycan xalqı hər zaman şəhidlərini qəlbində yaşadacaq.

Çıxış edənlər şəhid baş gizir N.Mikayılovun şərəfli həyat yolundan, vətənpərvərliyindən söz açdılar. Nahidin həyat və döyüşlər zamanı fəaliyyətini əks etdirən videoçarx nümayiş edildi.

Şəhidin həyat yoldaşı Jalə xanım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Qeyd edək ki, baş gizir Nahid Mikayılov Vətən müharibəsi zamanı Ağdam istiqamətində döyüşlərdən birində qəhrəmancasına şəhid olub və Kürdəmir rayon Şəhidlər xiyabanında dəfn edilib.

Mərasimin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərlik ruhunda musiqi nömrələri təqdim olundu. Xatirə şəkilləri çəkdirildi.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində İkinci Qarabağ müharibəsində canını Vətən yolunda fəda edən şəhid Elmaz Elmar oğlu Hacıyevin xatirəsinə həsr edilən "Şəhidlər ölməz, Vətən bölünməz" adlı anım tədbiri keçirildi.

Mərasimdə şəhidin müxtəlif illərdə çəkdirdiyi fotolar əsasında hazırlanan qısametrajlı videoçarx nümayiş edildi.

Tədbirdə şəhidin ailə üzvləri, döyüşçü yoldaşları, qohumlar və başqa qonaqlar iştirak etdilər.

Çıxış edən şəhid Elmaz Hacıyevin anası Səxavət xanım bildirdi ki, bu gün Vətən torpaqları mənfur ermənilərin işğalından azad edilib. Bu tarixi qələbə şəhidlərin qanı və canı bahasına qazanılıb. Bu gün onların ruhu şaddır. Şəhid anası göstərilən qayğıya görə Dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkür etdi.

Şəhidin komandiri polkovnik-leytenant Rahib Cavadov Elmazın bir neçə kəndin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak etdiyini dedi. Şəhidin sonuncu döyüşü noyabrın 4-də Laçın rayonunun Suarası kəndi ətrafında olub.

Şəhidin qohumları və dostları onun daim qəlblərində yaşayacağını bildirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Elmaz Hacıyev (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə təltif olunub.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin musiqi kollektivinin vətənpərvərlik mahnılarının ifası ilə başa çatdı.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



İkinci Şəhidlər xiyabanında Vətən müharibəsində şəhid olan əsgər Sənan Şahin oğlu Abdullayevin anım mərasimi keçirildi. Zəngilan rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında böyük uğurlar və zəfərlər qazandığını dedi. "44 gün davam edən Vətən müharibəsində torpaqlarımız işğaldan azad olundu. Təəssüflər olsun ki, bizim bu döyüşlərdə şəhidlərimiz də oldu. Onlar çox sevdikləri torpaqlarımız uğrunda canlarından keçdilər. Biz daim şəhid ailələri ilə əlaqə saxlayır, onlara diqqət və qayğı göstəririk. Biz şəhid Sənan Abdullayevin anım mərasiminə yığışmışıq. Bu gün həm də şəhid Ruslan Cəfərovun ad günüdür. Sənan da, Ruslan da Vətən müharibəsində iştirak edərək torpaqlarımızın azadlığı uğrunda vuruşublar. Vətən uğrunda vuruşanlar heç vaxt unudulmurlar".

Şəhidin atası Şahin Abdullayev çıxış edərək dedi ki, oğlum 1 noyabr 1998-ci ildə Bakı şəhəri, Nərimanov rayonunun Böyükşor qəsəbəsində anadan olub. "Vətən müharibəsi başlananda Sənan da başqa həmyaşıdları kimi könüllü olaraq yurdumuzun müdafiəsinə qalxdı. Sənan əks-hücum əməliyyatlarında igidliklə döyüşdü. Təəssüflər olsun ki, oktyabrın 5-də Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Sənan döyüş əməliyyatlarında göstərdiyi igidliyə və hünərə görə "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb. Oğlumun adını əziz tutduqlarına görə dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə və ictimaiyyətin nümayəndələrinə dərin minnətdarlığımı bildirirəm".

Bakı şəhəri 248 və Zəngilan rayonu 7 nömrəli məktəblərin şagirdləri qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər.

Anım mərasimi şəhid Sənan Abdullayevin məzarının üstünə əklil və gül dəstələrinin qoyulması ilə başa çatdı.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Belarusda azərbaycanlı hərbi pilot Fərrux Qayıbovun büstü açılıb







Belarusun Qrodno vilayətinin Oşmyan rayonunun Baruni kəndində ilk azərbaycanlı hərbi pilot Fərrux Qayıbovun büstünün açılışı olub.

AZƏRTAC xəbər verir ki, büstün açılış mərasimində Oşmyan rayonunun icra hakimi Vladislav Qeşqorin, Fərrux Qayıbovun qardaşı nəvəsi Həmidə Qayıbova, Belarus Müdafiə Nazirliyinin nümayəndələri, ölkəmizin Belarusdakı səfiri Ülvi Baxşəliyev, səfirliyin əməkdaşları, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Tədbir "İlya Muromeç-16" hərbi təyyarəsinin ekipaj üzvlərinin - Fərrux Qayıbovun, Mitrofan Raxminin, Dmitri Makşeyevin və Oleq Karpovun xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra çıxış edən səfir Ülvi Baxşəliyev "İlya Muromeç-16" hərbi təyyarəsinin ekipaj üzvlərindən birinin Azərbaycan xalqının qəhrəman oğlu Fərrux Qayıbovun olduğunu böyük qürur hissi ilə söylədiyini vurğulayıb. Fərrux Qayıbovun hərbi xidmətdə olduğu illərdə çoxsaylı orden və medallarla təltif edildiyini bildirib. Ölümündən sonra Fərrux Qayıbovun 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunduğunu qeyd edib. Göstərdiyi qəhrəmanlıq və şücaətə görə Fərrux Qayıbovun insanların yaddaşına əbədi həkk olunduğunu söyləyib. 2009-cu ildə "İlya Muromeç-16" hərbi təyyarəsinin düşdüyü yerdə ekipaj üzvlərinin xatirəsinə abidənin qoyulduğunu bildirib. Elə həmin yerdə Fərrux Qayıbovun büstünün qoyulmasına göstərilən köməyə görə Qrodno vilayətinin və Oşmyan rayonunun rəhbərliyinə təşəkkürünü ifadə edib.

Ü.Baxşəliyev qeyd edib ki, keçirilən tədbir ən çətin zamanlarda düşmənə qarşı böyük şücaətlə mübarizə aparan qəhrəmanların adlarının Azərbaycan və Belarus xalqları tərəfindən unudulmadığını bir daha göstərir. Ortaq tariximizin unudulmaması və gələcək nəsillərə ötürülməsi üçün belə tədbirlərin keçirilməsi çox vacibdir.

Tədbirdə Fərrux Qayıbovun qardaşı nəvəsi Həmidə Qayıbova çıxış edərək, qəhrəmanımızın adının öz ailəsində böyük hörmətlə və qürurla yada salındığını bildirib. Belarusda Azərbaycan qəhrəmanına göstərilən diqqətə görə minnətdarlığını ifadə edib. H.Qayıbova Fərrux Qayıbovun büstünün qoyulmasında əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Oşmyan rayonunun icra hakimi Vladislav Qeşqorin Belarusun Birinci və İkinci Dünya müharibələri qəhrəmanlarının xatirəsinin qorunmasına böyük önəm verdiyini bildirib. Dünya müharibələri zamanı azərbaycanlı qəhrəmanların Belarus ərazisində gedən döyüşlərdə böyük şücaət göstərdiklərini vurğulayıb.

Səfirliyin hərbi attaşelik aparatının rəhbəri Elşən Rəhimov Belarusun azad olunmasında və müdafiəsində Azərbaycanın minlərlə oğul və qızının döyüşdüyünü söyləyib. O, F.Qayıbovun keçdiyi döyüş yolu və qəhrəmanlıqları barədə ətraflı məlumat verib.

Büstün açılışından sonra ekipaj üzvlərinə qoyulan abidəyə və Fərrux Qayıbovun büstü önünə əklil və gül dəstələri qoyulub. Tədbir büstün qoyulduğu ərazidə yerləşən məktəbdə iştirakçıların çıxışları ilə davam edib.

Sonda "İlya Muromeç-16" hərbi təyyarəsinin ekipaj üzvlərinin dəfn olunduğu məzarlıq ziyarət olunub və məzarlar üzərinə gül dəstələri qoyulub.

# "Şəhid ailələrinə ehtiramla yanaşmalıyıq..."





44 günlük Vətən müharibəsi müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şücaəti, qəhrəmanlığı sayəsində Qələbə ilə başa çatdı. Tarixə qızıl hərflərlə yazılan bu müqəddəs yolda şəhid olanlarımızın Vətən sevgisi hər birimizə ölçüyəgəlməz qürur, fəxr yaşatmaqdadır. Xalqımız daim milli kimliyini uca tutub, dövlətə, dövlətçiliyə sadiqliyi, vətənpərvərliyi ilə seçilib. Bu sevgini hər bir insan əməlləri, gördüyü işlərlə təsdiq edib. Azərbaycan vətəndaşına məxsus vətənsevərlik, xeyirxahlıq, mərhəmətlik kimi ali mənəvi keyfiyyətləri, mənəvi dəyərləri şəxsiyyətlərində cəmləyənlərin Vətənə xidmətləri heç zaman unudulmayacaq.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin əməkdaşları bu günlərdə Mingəçevir və Bərdə rayonlarında şəhid ailələrinə baş çəkiblər.

Öncə Şəhidlər xiyabanını ziyarət edib, şəhid məzarları üstünə gül dəstələri qoyublar.

Mütəmadi olaraq şəhid ailələri ilə görüşlər keçirən Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri üzrə iş şöbəsinin müdiri Zümrüd Səmədova bildirib ki, İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatdı. "Bu müharibədə rəşadətli Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müzəffər Ali Baş Komandanlığı ilə işğalçı Ermənistanı döyüş meydanında darmadağın etdi. Əzəli torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən bu savaş milli həmrəyliyimizin rəmzinə çevrildi, tariximizə qürur mənbəyimiz kimi həkk olundu. Möhtəşəm Zəfər tariximizi, dövlətçilik irsimizi daha da şərəfləndirdi. Bu Qələbə dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirdi...".

Zümrüd Səmədova vurğulayıb ki, Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda edən şəhidlərimizin ailələrinə dövlətimizin rəhbərliyi, eləcə də Müdafiə Nazirliyi tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir. "Onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq müxtəlif addımlar atılır, tədbirlər həyata keçirilir. Şəhidlərimizin xatirəsini yad etmək hər birimizin ən müqəddəs borcudur. Düşünürəm ki, şəhid ailələri Vətənə əmanətdi. Bizlər də bu əmanətə ehtiramla yanaşmalıyıq...".

Ziyarət olunan şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Görüş zamanı şəhid ailələrinə qiymətli hədiyyələr, sovqatlar təqdim olunub.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Şuşa, biz qayıtdıq!

*Noyabrın 8-i tarixdir. Bu tarix Zəfər tarixidir. Zəfər tarixi heç zaman unudulmayacaq. Azərbaycan qələbəsiylə bütün dünyaya göstərdi ki, o güclü dövlətdir, onun ordusu qüdrətli və yenilməzdir. Bilirdik ki, bizim yolumuz haqq yoludur. Torpaq da, daş da, yurdun havası da bizim tərəfdən savaşırdı. Torpaq da, daş da geri qayıdacağı günün çatdığını duyurdu. Bir-bir alırdıq düşmən pəncəsindən kənd və qəsəbələrimizi. Şuşa qalası da, Şuşa məscidi də anlayırdı onun da əsirlikdən qurtulma vaxtının gəldiyini. Ayın 8-i Azərbaycan əsgərinin gülləri azadlıq dastanı yazdı. Şuşanın işğaldan azad edilməsi xəbəriylə küçələrə axın edən insan selinin dilində Ali Baş Komandanın şüarı vardı: "Əziz Şuşa, sən azadsan!"*

Meydanlarda dalğalandırdıq bayrağımızı. Rəhbərimiz, şəhidimiz, əsgərimiz qazandı ömürlük sayğımızı, hörmətimizi, minnətdarlığımızı. Həmin gün Şəhidlər xiyabanı fəxarət hissli ziyarətgaha çevrildi.

Şəhidlər xiyabanının ucalığı şəhidlərlə ölçülür. Son uçuşunu etdi pilot Zaur Nudirəliyev, son nəğməsini oxudu Xudayar Yusifzadə. İnsanlar anlayırdı döyüşənlərin, şəhidlərin qazanacağı Zəfərin uzaqda olmadığını. Şəhidlər yaşamaq hüququndan keçdilər, şəhid oldular.

Şəhidlər unudulmadı, yaddan çıxmadı. Unudulmayacaq, yaddan çıxmayacaq. Şəhidlər anıldıqca yenidən doğulur. Şəhid həsrətin digər çalarları da əriyib məhv oldu. Qarabağ bayrağa, bayraq da ona həsrət idi. Qovuşdular ən uca məqamda. Bayraq Qarabağın ürəyində - Şuşada dalğalanmaq ümidiylə yanıb-tutuşurdu. Həmin an gəldi. Bayraq aid olduğu yerdə, torpaqda, Şuşanın ən uca nöqtəsində dalğalanacaq artıq.

Azərbaycan əsgəri, bu qələbə sənin tarixini öz axarına qaytaran əsərindir. Xalqın üzündəki təbəssümü, qəlbindəki rahatlığı sən gətirdin. İndi şəhid analarının göz yaşları övladlarının qanının yerdə qalmaması sevincidir. Biz səndən qorxmadan dayanmağı öyrəndik.

İndi qürurla deyə bilərik: Əziz Şuşa, sən azadsan! XX əsr səni göz yaşlarında boğdu, qəlbini dağladı. Amma XXI əsrdə biz səni əsirlikdən geri qaytardıq!

**Hüsniyyə İDRİSOVA**

# Yeni qələbələr qazanmağa hər an hazırıq!

(Əvvəli 1-ci səhifədə)



Zabit qeyd etdi ki, batareyanın baş zabiti rabitə vasitəsindən tapşırığı alır, hesablamalar aparılır və top komandirlərinə məlumatlar ötürülür. Top heyəti hədəfi tuşladıqdan sonra batareyanın döyüşə hazır olduğu məruzə olunur. Həmçinin onu da dedi ki, tapşırıqların icrası zamanı bütün heyətlər yüksək hazırlıq nümayiş etdirirlər. Zabit vurğuladı ki, artilleriya müharibədə qələbənin qazanılmasında mühüm rola malik olduğuna görə, bu hərb sənətinin sirləri şəxsi heyətə dərindən aşılanır. "Tarixi zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsində qazandığımız təcrübəyə əsaslanaraq bildirirəm ki, artilleriya müharibənin taleyində vacib sayılan döyüş növlərindən biridir. Düşmənin sədlərinin və qüvvələrinin darmadağın edilməsində mühüm rola malikdir. Çalışırıq ki, topun idarə edilməsinə cavabdeh olan heyət üzvləri öz vəzifələrinin öhdəsindən bacarıqla gəlmək üçün lazım olan döyüş vərdişlərinə yetərincə yiyələnsinlər. Bundan əlavə, hər bir heyət nəfəri başqa döyüş vəzifəsində də öz silahdaşını əvəz etməyə qadir olmalıdır. Bu isə müharibənin qaydaqanunlarından irəli gəlir, axı döyüşdə itkisiz keçinmək olmur. Bunu yaxşı dərk edən gənc artilleriyaçılar da dərslər zamanı hərbi bilik və nəzəriyyəni öyrənməyə can atır, təlim və məşqlərdə əzmkarlıq göstərirlər. Onların hər biri Vətənə, xalqa və dövlətə xidmət etməyi ömrünün mənası bilərək bacarıqlı əsgərlər kimi formalaşmağı qarşılarına məqsəd qoyublar".

Baş leytenantın sözlərinə qüvvət olaraq qeyd edim ki, ötən il ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə ordu sıralarında əsgəri xidmətdə olan gənclərimiz düşmənə sözlərini döyüş meydanında qətiyyətlə dedilər. Vətənpərvərliklərini, dövlətimizə və xalqımıza bağlılıqlarını qələbələri ilə sübut etdilər. Düşmən hədəflərini dəqiq və sərrast atəşlərlə məhv edib, yüksək döyüş hazırlığı nümayiş etdirərək, keçirilən dərslərdə, təlimlərdə silahların və hərbi texnikaların sirlərinə dərindən yiyələndiklərini nümayiş etdirdilər.

Vətən müharibəsində şücaət göstərən artilleriyaçılarımızdan biri də top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Babək Əhmədovdur. "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunan Babək də digər silahdaşları kimi düşmən hədəflərinin məhv edilməsində fərqlənən topçulardandır. Babək dedi ki, heyət üzvlərimizin bir çoxu döyüşlərin sınağından üzüağ çıxıb. "Biz döyüşlərdə yetərincə təcrübə qazandıq. Bu gün də həmin təcrübəni yeni xidmətə gələn əsgərlərə aşılayırıq. Mütəmadi tədris olunan nəzəri və praktiki dərslərə yanaşı, müntəzəm keçirilən təlimlərdə əsgərlərimiz səriştəli və bacarıqlı artilleriyaçılar kimi formalaşırlar. Bölməmizin şəxsi heyətinin həm mənəvi-psixoloji durumu, həm də döyüş təcrübəsi yüksək səviyyədədir. Döyüş meydanında qazandığımız təcrübələrdən istifadə edərək hazırlığımızı daha da artırırıq. İstənilən döyüş əməliyyatlarında iştirak etməyə və verilən tapşırıqları bacarıqla yerinə yetirməyə daim hazırıq".

Babəklə söhbətimi yekunlaşdırıb heyət nəfərlərinin də düşüncələrini qeydə alıram. Məşğələ zamanı çeviklik və bacarıqla tapşırıqları icra edən gənc topçularla söhbət etdim.

Əsgərlər Möhlət İsmayılovun, Turan Məmmədzadənin və Amil Namətzadənin əsgəri xidmətlərinin başa çatmağına sayılı həftələr qalıb. Vətən müharibəsində göstərdikləri şücaətə görə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunan igidlər xalqımıza qələbə sevinci yaşadanların sırasında olmaqdan qürurlandıqlarını bildirdilər. "O müqəddəs günlər hər kəsin arzusu olsa da, hamıya qismət olmadı. Biz şanslı gənclərik ki, xidmətimiz döyüşlərə təsadüf etdi. Həmin günləri qürurla, sevinclə və hüznlə xatırlayırıq. Döyüşlərdə şəhid olan silahdaşlarımıza Allahdan rəhmət diləyirik. Onların əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaq. Təlim və dərslərdə çəkdiyimiz əziyyətlərin bəhrəsini döyüş meydanında gördük. Savadlı və peşəkar komandirlərimiz sayəsində topun bütün xüsusiyyətlərini, verilən hədəfi dəqiq nişan almağı və digər nəzəri, təcrübi bilikləri mənimsəmişik. Ordu sıralarından bacarıqlı əsgərlər kimi tərxis olunacaq, ailəmizin yanına qalib əsgərlər kimi başıuca qayıdacağıq".

Digər heyət nəfərləri əsgərlər Əzizxan Bayramov, Hüseyn Abışov, Murad Babazadə və Orxan Açyev silahdaşlarının sözlərinə qoşularaq hərbi xidmətləri dövründə hazırlıqlı əsgərlər kimi formalaşdıqlarını və istənilən anda döyüş tapşırığını icra etməyə hazır olduqlarını bildirdilər. "Hərbi xidmətə gəldiyimiz ilk gündən bizə diqqət və qayğı göstərilir. Bütün zəruri təminatlarımız yüksək səviyyədədir. Zabitlərimizdən, çavuşlarımızdan və təcrübəli silahdaşlarımızdan bilmədiklərimizi öyrənir, təlimlərdə həvəslə iştirak edirik. Yaxşı bilirik ki, hər təlim döyüş hazırlığımızı daha da möhkəmləndirir, həm də bacarıqlarımızı üzə çıxaran əsas vasitədir. Hər birimiz yüksək döyüş hazırlığına malik olan, bacarıqlı artilleriyaçılar kimi formalaşırıq".

Gənclər, həmçinin qətiyyətlə vurğuladılar ki, istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə, yeni qələbələr qazanmağa hər an hazırıq. Əsgərlərlə söhbətim bir daha əminlik yaradır ki, bu gün ordu sıralarında döyüş sirlərinə yiyələnən gənclər Vətənin istənilən çağırışına daim hazırdılar.

Müxtəlif qoşun növlərində və bölmələrdə mütəmadi keçirilən təlimlər onun göstəricisidir ki, ordu quruculuğunda atılan hər addım döyüş qabiliyyətinin artırılmasına istiqamətlənir. Məhz bunun nəticəsidir ki, Ali Baş Komandanın rəhbərliyi və xalqımızın dəstəyi ilə yeni bir tarix yazıldı. Rəşadətli ordumuz Qarabağın azadlığı uğrunda öz layiqli missiyasını uğurla icra etdi. 30 illik erməni işğalına məhz güclü ordumuz sayəsində son qoyuldu. Bu gün hər bir Azərbaycan vətəndaşı qürurla və inamla deyə bilir ki, ölkəmizin sərhədlərini havadan, qurudan, dənizdən qətiyyətlə qoruya bilən, qüdrətli və yenilməz ordusu var.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Medallı igidlərimiz*

# "Ömrün bundan sonrasını da Vətən üçün yaşayacağıq"



***Naxçıvanda boya-başa çatıb. Hərbçi olmağı nə zaman qərara alıb, yadında deyil. Oxuduğu kitabların da, ata söhbətlərinin də, müəllimlərinin dediklərinin də, hərbi xidmətdən qayıdan qohumların-qonşuların da təsiri olub. Televiziyadan izlədiyi verilişlər, sənədli filmlər onun dünyaduyumunu daha da genişləndirirdi. Nə vaxtsa oxuduğu və yaddaşına yazdığı bir kəlamı ömür yoluna düşən işıq bilirdi: Vətəni sevmək azdı, Vətən üçün yaşamaq lazımdı. "Vətənə görə yaşamaq üçün zabit olmalıyam", - Röyal Rəcəbov belə dedi. "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum. Oxuyurduq, öyrənirdik. Öyrəndiklərimiz çöl çıxışlarında - təlimlərdə möhkəmlənirdi..."...***

Nəzəri biliklərini Birinci Qarabağ müharibəsi iştirakçısı olan zabitlərin xatirələri haqqında dedikləri, müxtəlif mətbu orqanlarında dərc edilən döyüş təəssüratları tamamlayırdı. Məktəbdə tədqiqatçı Şəmistan Nəzirli ilə görüş keçirilirdi. Qonaq sərkərdələrimizdən də danışdı, Səmədağa Mehmandarovu da xatırlatdı, Əlağa Şıxlinskini də. Əlağa Şıxlinskinin "Xatirələrim" kitabından böyük sevgilərlə söz açdı. Bu, kursant Röyal Rəcəbovun düşüncələrində incə bir tərpəniş yaradıb. Gözəl bir təsadüf kursantı "Xatirələrim"dən batareyaya istiqamətləndirdi - artilleriyaçı oldu...

Röyal Rəcəbov 2018-ci ildə zabit kimi hərbi xidmətə başladı. 2020-ci ildə gənc zabit Vətən müharibəsinin iştirakçısı oldu. Laçın istiqamətində döyüşürdülər.

Batareyaya Laçın dəhlizi istiqamətində mühüm strateji əhəmiyyətli mövqeni dağıtmaq əmri verildi. Düşmən nisbətən yüksəklikdəydi. "Relyef əmrin yerinə yetirilməsinə mane ola bilməz. Əmr bütün üsul və vasitələrdən istifadə edilməklə yerinə yetirilməlidir", - baş leytenant Röyal Rəcəbov Vətən müharibəsinin bir məqamından danışdı:

- Müşahidə məntəqəsindən bir qədər sol tərəfə çəkilməyimizi məsləhət gördülər. Gizliliyi gözləməklə çəkildik. Deyilən istiqamətə bir mərmi atdıq. Az sonra atışı deyilən düzəlişlər əsasında apardıq. Atdığımız mərmilər düşmən mövqeyini darmadağın etdi. Vətən müharibəsində ilk döyüşümüz batareyanın şəxsi heyətinin döyüş əzmini də, qələbə ruhunu da yüksəltdi. Əsgərlərimizdən biri təklif etdi ki, bu qələbəni novruzgülündən sonra yaz gəlir. Yaz bizim batareyanın, hərbi hissəmizin, ordumuzun qazanacağı qələbə olacaq", - əsgər belə dedi. Batareyanın şəxsi heyəti təkliflə razılaşdı. Novruzgülü adlandırdığımız qələbənin gözəl davamı oldu. Həm say baxımından, həm də düşmənin itkiləri baxımından.

"Batareyamız Daşaltıda idi. Düşmən dayaq məntəqələrindən birində döyüşçülərimizin qarşısında atış zolağı yaradıb. Bu zolaq aradan qaldırılmasa, irəliləmək mümkün olmayacaqdı. Bu məqamlarda o qədər də uzaq olmayan məsafədə bir PDM göründü. Düşmənin döyüş texnikası sərrast atəşlə məhv edildi. Bu atışın davamı komandanlıqdan verilən əmrin icrası oldu. İlk atış bir qədər hədəfin arxasına düşdü. Buna təcili düzəliş verdilər və döyüşçülərimizin qarşısına atəş zolağı yaradan düşmənin başına "od ələdilər". 10-dan çox mərmi düşmənin sığındığı ərazini darmadağın etdi", - deyə gənc zabit bildirdi.

Batareya Şuşa yaxınlığında idi. Şuşanın dağları görünürdü. Yaydan bu yana dumanı çəkilən dağların sinəsində, yamacında qara buluda bənzəyən dumanlıq sürünürdü. Müharibənin əlamətləriydi. Güllələrin, mərmilərin yaratdığı qara dumana bənzərliyin içindən Şuşaya sarı baxırdılar. Şuşaya sarı gedən tankı gördülər. Baş leytenant Röyal Rəcəbovun əmri ilə tanka bir mərmi atıldı. Mərmi tankın üstünə düşdü. Tank alışdı. Bunun davamı kimi düşmənin o istiqamətdən keçməkdə olan və sursat daşıyan maşını da dəqiq atəş zərbəsi ilə məhv edildi...

Bu atış batareyanın Vətən müharibəsində atdığı sonuncu mərmi oldu...

"Vətən müharibəsində atdığımız mərmilərin böyük əksəriyyəti düşmənin komanda-qərargah və dayaq məntəqələrini, qruplaşmalarını, döyüş texnikalarını, canlı qüvvəsini məhv etdi. Komandir olaraq batareyamızın şəxsi heyətinin döyüşü ilə qürurlanıram", - baş leytenant Röyal Rəcəbovun qüruru da bizə doğma qürurdu, sevinci də. Bu sevinc Zəfərin sevincidi. Bu sevinc Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsində xalqa müraciətində dediyi "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq" fikrinin sevincidi...

Baş leytenant Röyal Rəcəbov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Baş leytenant Röyal Rəcəbov batareyanın şəxsi heyətinə dedi ki, ömrü Vətən üçün yaşamaq səadətdi. Vətən üçün döyüşdünüz. Qalib gəldiniz. Ömrün bundan sonrasını da Vətən üçün yaşayaq...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.

**Suallar:**

**1. Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir.**

**2. Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.**

### Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir

Dünyanın siyasi səhnəsində dövlətlərin uzunömürlü olması, ilk növbədə onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasının olmasından asılıdır. Hələ min illər əvvəl Azərbaycan amili bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilibdir.

Əslində, azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlanan müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapıbdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınıb və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil edibdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək tarixi zərurət forması əldə etdi.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin, Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən, ilk növbədə tarix boyu əldə edilən zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi Vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan, türk dövlətləri arasında səmimi və qarşılıqlı faydalı tərəfdaşlığın olduğunu daima nümayiş etdirir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirirdi. O, həm də yaxşı dərk edirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Ümummilli lider Heydər Əliyev xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz ümummilli lider Heydər Əliyevin həmin görüşlərdə hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar təşkil edibdir. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında milli-mənəvi dəyərlərin qorunub saxlanılması haqqında deyibdir: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı.

### Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası bu gün də mövcuddur. Bu ideya ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Ümummilli Liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib.

Ulu öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.

Hələ sovet dövründə respublika rəhbəri işləyərkən Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir: Hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə ümummilli lider Heydər Əliyev müstəqilliyin əsasını qoyubdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev yorulmadan Azərbaycanın hər bir guşəsinə səfər edir, inkişafla maraqlanır, insanların həyat tərzi ilə tanış olurdu. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıyaraq, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanıbdı.

Qüdrətli şəxsiyyət Azərbaycan dilinin, tarixinin ədəbiyyat və mədəniyyətinin yeni - azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiyasını və strategiyasını formalaşdırdı. Bu baxımdan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi. Bu tarixi sənədlər artıq yeni əsrin və üçüncü minilliyin əvvəllərində ana dili uğrunda mübarizənin dövlət səviyyəsində milli müstəqillik uğrunda mübarizənin, azərbaycançılığın tərkib hissəsi kimi əks etdirən dövlət proqramları - böyük strategiyanın təməl faktları idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini, heç şübhəsiz, ordu quruculuğu təşkil edir. Bu istiqamətdə ümummilli lider Heydər Əliyev fəaliyyətinin qlobal miqyası Azərbaycanın bugünkü reallıqları ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasından əzəmətli görünür. Belə ki, hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik edən Ulu Öndərimizin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlər bu gün öz tarixi təsdiqini tapmaqdadır. O vaxtlar ümummilli lider Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanan uzaqgörən siyasətin nəticəsi idi.

Müstəqillik illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz ümummilli lider Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyətin nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ümummilli Liderin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Quru Qoşunlarının birləşmələrindən birində komanda-qərargah təlimi keçirilib

*Təsdiq olunan illik döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının birləşmələrindən birində komanda-qərargah təlimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimdə bölmələrin müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilməsi, təyinat rayonlarına çıxarılaraq idarəetmə orqanlarının ərazidə açılması təmin olunub.

Bölmələrin qarşılıqlı fəaliyyətinin, komandirlərin çevik qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsi, eləcə də döyüşün fasiləsiz idarə olunması vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə müxtəlif təlim-döyüş tapşırıqları icra olunub.

## Tibb xidməti

# Şəxsi heyətin sağlamlığı döyüş hazırlığına bilavasitə təsir göstərir



Hərbi qulluqçuların döyüş hazırlığı ilə yanaşı, tibbi təminatın da yüksək səviyyədə olması daima yuxarı komandanlığın diqqət mərkəzindədir. Şəxsi heyətin sağlamlığı döyüş hazırlığına bilavasitə təsir göstərdiyinə görə hərbi hissələrdə tibb məntəqələri müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunub. Bununla yanaşı, orduda sıralarında xidmət edən hərbi həkimlərin ixtisas biliklərinin təkmilləşdirilməsinə də xüsusi nəzarət yetirilir. Danılmazdır ki, əsgərlərimizin sağlamlığının qorunması həkimlərimizin peşəkarlığından asılıdır.

"N" hərbi hissəsinin tibb məntəqəsinin feldşeri gizir Amil Məmmədzadə tibb məntəqəsinə müraciət edənləri diqqət və qayğı ilə qarşılayır. Amil Məmmədzadə ilə həmsöhbət olduq. "Bölmələrdə şəxsi heyətin ictimai gigiyena qaydalarına ciddi əməl etməsində hərbi həkimlərin, feldşerlərin, sanitar-təlimatçıların rolu böyükdür. Əsgərlər hər gün müayinə edilir. Müayinə zamanı özünü narahat hiss edən hərbi qulluqçu aşkar edilərsə dərhal tibb məntəqəsinə yönləndirilir. Burada ilk olaraq xəstənin şikayəti öyrənilir. Sonra xəstənin qan təzyiqi, bədən temperaturu ölçülür, ciyərləri dinlənilir və lazımi tədbirlər görülür. Əgər ehtiyac olarsa, xəstə dərhal hərbi hospitala təxliyə edilir".

Öyrənirik ki, tibb məntəqəsinin feldşeri vəzifəsində xidmət edən gizir Amil Məmmədzadə həm Aprel döyüşlərinin, həm də Vətən müharibəsinin iştirakçısıdır. Əslər Kəlbəcər rayonundan olan hərbi qulluqçu qələbə günü sevincinin həddi-hüdudu olmadığını bildirdi. "Çox sevinirəm ki, torpaqlarımızı düşməndən azad etdik. Atam da Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Uşaq vaxtlarından atamın düşmənin törətdikləri, doğma torpaqlarımızın gözəl təbiəti haqqında hekayələri ilə böyümüşən. Düşmənə qarşı əks-hücum əməliyyatının qələbə ilə yekunlaşması hər birimizi arzusuna çatdırdı".

Müayinəsi başa çatan əsgərlər Kənan Quliyev və Adil Nərimanov tibb məntəqəsində onlara həmişə diqqət və qayğı ilə yanaşıldığını dedilər. "Xidmətimiz müddətində tibb məntəqəsinə bir neçə dəfə müraciət etmişik. Əsgər yoldaşlarımızdan burada yaradılan şəraitdən, həkimlərimizin peşəkarlığından çox eşitmişdik. İnanırıq ki, savadlı və bacarıqlı həkimlərimizin sayəsində tezliklə sağalıb xidmətimizi davam etdirəcəyik".

Həkim olmaq şərəflidir, həkim olaraq hərbi qulluqçuların sağlamlığının keşiyində dayanmaq həm şərəflidir, həm də ikiqat məsuliyyət tələb edir. "N" hərbi hissəsinin tibb məntəqəsində gördüklərimiz deməyə əsas verir ki, əsgərlərimizin sağlamlığı əmin əllərdədir.

**Kapitan**
**Ruslan HƏSƏNZADƏ**
**"Azərbaycan Ordusu"**

# "Vətən daşı" şəhidlərimizin xatirəsini qəlblərdə əbədiləşdirəcək

Bakı şəhərində Nizami Gəncəvi adına kinoteatrda Respublika "Xatirə" kitabının təşəbbüsü ilə "Vətən daşı" layihəsi çərçivəsində Vətən müharibəsində şəhid olan oğullarımızın döyüş və ömür yolundan bəhs edən sənədli filmlərin təqdimat mərasimi keçirildi.

Təqdimat mərasimini Azərbaycan Jurnalistlər Birliyinin sədri Əflatun Amaşov açıq elan etdi. Ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canından keçən oğulların ruhu bir dəqiqəlik sükutla yad olundu. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdilər.

AJB-nin sədri Əflatun Amaşov dedi ki, indi qürurlu günlər yaşayırıq. Bu qüruru bizə Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri yaşatdılar. Onlar ölümün gözünə dik baxaraq erməni işğalçıları ilə döyüşlərə atıldılar. Cəsarətlə, hünərlə vuruşaraq düşmənə sarsıdıcı zərbələr endirdilər. Yağılar bu zərbələr qarşısında dayana bilməyərək geri çəkilməyə məcbur oldular. Azərbaycan Ordusu 44 gün ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında döyüşlərdə böyük uğurlar qazanaraq uzun illərdən bəri işğalda qalan torpaqlarımızı azad etdi. Azərbaycan xalqı övladlarının Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqları heç vaxt unutmayacaq. Xatirələrini əbədi olaraq yaşadacaq. Respublika "Xatirə" kitabının kollektivi şəhidlərimizin xatirələrinin unudulmaması və əbədi olaraq yaşadılması üçün çox dəyərli "Vətən daşı" adlı layihəni həyata keçirməyə başlayıblar. Layihəyə əsasən yurdumuzun azadlığı uğrunda şəhid olanların ömür və döyüş yollarından bəhs edən sənədli filmlər çəkilir. Bu, olduqca vaxtında həyata keçirilən dəyərli bir layihədir. Bu layihənin rəhbəri Respublika "Xatirə" kitabının və "Yada düşdü" jurnalının baş redaktoru Nəzakət Məmmədovadır. Sənədli filmlərin rejissoru və ssenari müəllifi gənc yazıçı Vüsal Nurudur. Respublika "Xatirə" kitabının kollektivinə işlərində uğurlar arzulayırıq.

Çıxış üçün Respublika "Xatirə" kitabının baş redaktoru Nəzakət Məmmədovaya da söz verildi. "Vətən daşı" layihəsinin rəhbəri dedi ki, xalqımız tarixində ilk dəfə olaraq Zəfər Gününü qeyd etdi. Biz bu əlamətdar və qürur dolu günü uzun illər arzulayırdıq. Şükürlər olsun ki, arzularımız 2020-ci ilin payızında reallığa çevrildi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında gündən-günə güclənən Azərbaycan Ordusunun zabit və əsgərləri Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıqlar göstərərək "Dəmir yumruq" əməliyyatını uğurla başa çatdırdılar. 28 ildən çox işğalda qalan torpaqlarımızı erməni qəsbkarlarından azad etdilər. Təəssüflər ki, Vətən müharibəsində şəhidlərimiz də oldu. Torpaq qeyrəti çəkən oğullarımız yurdumuzun azadlığı uğrunda canlarından keçdilər. Xalqımız bu cəsur oğullarını heç vaxt unutmayacaq. Onları daim anacaq və xatırlayacaq. Bizim tərəfimizdən də şəhidlərimizin daim qəlbimizdə yaşaması üçün "Vətən daşı" layihəsi çərçivəsində bir sıra önəmli addımlar atılıb. Vətən müharibəsinin şəhid qəhrəmanları haqqında sənədli filmlər çəkilib. Qələbəni bizə yaşadanları biz daim qəlbimizdə yaşadacağıq. Şəhidlər haqqında yeni sənədli filmlər çəkiləcək və tamaşaçılara təqdim ediləcək. Layihəyə uyğun olaraq bu istiqamətdə daha da önəmli addımlar atılacaq. Bunların sayəsində xalqımız torpaqlarımız uğrunda vuruşan və şəhid olan oğullarını daha yaxından tanıyacaqdır.

Əməkdar jurnalist Flora Xəlilzadə, "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev və başqaları çıxış edərək "Vətən daşı" layihəsi ilə bağlı fikirlərini bölüşdülər. Yaradıcı kollektivə uğurlar arzuladılar.

Çıxışlar başa çatandan sonra Vətən müharibəsinin dörd şəhidi - Ömər Rəhimli, Saleh Əliyev, Vüsal Şükürlü, Əmrah Abışovun ömür və döyüş yollarından bəhs edən sənədli filmin nümayişinə başlanıldı.

Tədbir iştirakçıları filmləri maraq və qürurla izlədilər. Azərbaycan xalqına Zəfər Gününü yaşadanlara bir daha "əhsən" dedilər. İnanırıq ki, "Vətən daşı" layihəsinə uyğun olaraq bundan sonra da Vətən müharibəsinin qəhrəmanları haqqında bir-birindən dəyərli filmlər çəkiləcək. Bu filmlər şəhidlərimizin xatirəsini qəlblərdə əbədiləşdirəcək.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İraqın Hərbi Hava Qüvvələri İŞİD terror qruplaşmasına zərbə endirib



İraqın Hərbi Hava Qüvvələrinin ölkənin şərqində yerləşən Diyala əyalətində İŞİD qruplaşmasına qarşı həyata keçirdiyi xüsusi əməliyyat nəticəsində beş silahlı öldürülüb.

İraq müdafiə nazirinin məlumatına görə, silahlılar Birləşmiş Operativ Komandanlığının Diyala əyalətindəki qərargahına hücum etməyə hazırlaşırdılar.

Bir müddət öncə İraqın təhlükəsizlik qüvvələri İŞİD qruplaşmasının "Əl-Faruk" bölməsinin komandirlərindən birini həbs edib. Qruplaşma üzvləri Əl-Mahmudiyyə və Əl-Həsva yaşayış məntəqələrini birləşdirən yolda yeddi tankı yandırıb, həmçinin 4 dinc sakinin ölümü ilə nəticələnən partlayış törədiblər.

### "Taliban" Kabil şəhərində İŞİD qruplaşmasına qarşı əməliyyat keçirib



"Taliban" hərəkatı Əfqanıstanın paytaxtı Kabilin şimalında İŞİD qruplaşmasına qarşı əməliyyat keçirib.

Polisin məlumatına görə, əməliyyat nəticəsində azı üç İŞİD silahlısı öldürülüb. Hazırda bu rayon taliblərin təhlükəsizlik qüvvələrinin nəzarəti altındadır.

Xatırladaq ki, dünən Kabildə iki partlayış baş verib. Daşte-Barçi ərazisində törədilən ilk partlayış nəticəsində dörd nəfər həlak olub, iki nəfər yaralanıb. Kabilin qərb hissəsində baş verən ikinci partlayış nəticəsində isə beş nəfər həlak olub, yeddi nəfər yaralanıb. İŞİD qruplaşması hər iki partlayışın məsuliyyətini üzərinə götürüb.

### Kabildə baş verən iki partlayış nəticəsində 11 nəfər həlak olub



Əfqanıstanın paytaxtı Kabildə baş verən iki güclü partlayış nəticəsində ən azı 11 nəfər həlak olub.

İlk partlayış paytaxtın qərbində yerləşən və etnik xəzəri-şiələrinin yaşadığı Daşte-Barçi rayonunda baş verib. Mikroavtobusun maqnitli mina vasitəsi ilə partladılması nəticəsində dörd nəfər ölüb, iki nəfər isə yaralanıb.

Kabilin qərbindəki Dehbori rayonunda törədilən ikinci partlayış nəticəsində isə yeddi nəfər həyatını itirib.

Qeyd edək ki, "Taliban" hərəkatı avqust ayında ABŞ və NATO qoşunlarının Əfqanıstandan çıxarılması fonunda hakimiyyəti ələ keçirib. Sentyabrın 7-də taliblər ölkənin müvəqqəti hökumətini formalaşdırsa da, "Taliban" hökuməti dünyanın heç bir ölkəsi tərəfindən rəsmi olaraq tanınmayıb. Həmçinin ölkədə İŞİD qruplaşma aktiv fəaliyyət göstərir.

### Yaponiya və ABŞ ilk dəfə Cənubi Çin dənizində sualtı qayığın iştirakı ilə təlimlər keçiriblər



Yaponiya və ABŞ Cənubi Çin dənizində ilk dəfə sualtı qayıqlara qarşı əməliyyat nəzərdə tutan təlimlər keçiriblər.

Bu barədə Yaponiya Müdafiə Nazirliyi məlumat yayıb. Yaponiya tərəfdən təlimlərdə "Kaqa" helikopter daşıyanı, "Murasame" esminesi, P-1 patrul təyyarəsi və sualtı qayıq, ABŞ tərəfdən isə bir esmines və P-8A sualtı qayıqlara qarşı patrul təyyarəsi iştirak edib.

Bu, Yaponiyanın Cənubi Çin dənizinə ABŞ ilə təlimlərə sualtı qayığı göndərdiyi ilk haldır. NHK telekanalının bildirdiyinə görə, bu addımın atılmasında məqsəd regionda status-kvonun dəyişdirilməsi cəhdlərinin qarşısının alınmasıdır.

**AZƏRTAC-ın materialları əsasında**

Düşüncələr

# Sən heç solma, həmişə var ol, Xarı bülbül!



Gurultu səsinə oyandı Xarı bülbül, yuxulu-yuxulu boylandı ətrafa. Bu səsi çox tez-tez eşidərdi, hər dəfə eşidəndə "bəlkə qayıtdılar..." deyə bir fikir gəlirdi ağlına, amma tez özündən uzaqlaşdırırdı "bəlkə..." fikrini. Əmin idi qayıdacaqlarına... Yorulmuşdu yol gözləməkdən, yorulmuşdu həsrət çəkməkdən, həm də çox yorulmuşdu....

30 il idi... 30 il idi ki, gözü yollarda qalmışdı Xarı bülbülün, 30 il idi ki, səbirlə gözləyirdi, ümidini tamam tükənməyə qoymadı, daha geri dönməyəcəklər deyə düşünməkdən uzaq oldu, amma hər gurultu səsi eşidəndə "qayıdırlar..." deyə yenə boylanırdı ətrafa, ümidi gah artır, gah azalır, gah da əminliyə çevrilirdi.

Bu dəfə uzun çəkdi gurultu səsi, get- gedə də yaxınlaşırdı... Səs- küy çoxaldıqca, həyəcanı artırdı Xarı bülbülün. Bir an dondu qaldı Xarı bülbül... Aman Allah, bu səslər...

Bu səs onun igidlərinin səsi idi, bu səs Vətən səsi idi, necə doğma idi bu səslər, necə əziz idi... Səsə tərəf qaçmaq istədi, ayaq açıb yerimək istədi, quş olub uçmaq istədi Xarı bülbül...

Gözlədi... Gözlədi... Getdikcə daha aydın eşidirdi səslər. Doğma elə, obaya, doğma səsə, nəfəsə 30 il həsrət çəkən Xarı bülbülün 30 saniyə gözləməyə səbri çatmırdı. Görmək istəyirdi onu xilas etməyə gələnləri, görmək istəyirdi alnındakı ləkəni təmizləməyə gələnləri, mənfur düşmənin başını əzənləri, ölümü gözə alanları, qayəsi "Vətən" olanları, qeyrətli oğulları görmək istəyirdi. Budur, get-gedə yaxınlaşırdılar... Artıq tanıya bilirdi onları Xarı bülbül...

Öndə gələn Anar Əliyev idi, "Biz qalib gələcəyik" deyib igidlərinə təlimatlar verən... Xudayar idi gələn, "Vətən yaxşıdır" deyib düşmənin üstünə cəsarətlə gedən... Seymur Cabbarov idi gələn, "Qisasımızı alırıq" deyib düşmənin canına vəlvələ salan... Cəbrayıl Dövlətzadə idi gələn, düşməni əlləri ilə boğmağa hazır olan... Çox idi gələn igidlər, çox idi Vətənimin qeyrətli oğulları... Amma Xarı bülbül artıq heç nə görmürdü, sevincindən nə hiss etdiyini anlaya bilmirdi, qol-qanad açıb uçmaq istəyirdi Vətən övladlarına tərəf, hamısını tək-tək qucaqlamaq istəyirdi, bağrına basmaq istəyirdi, 30 il həsrət çəkdiyi övladlarının qoxusunu duymaq istəyirdi, Xarı bülbül...

Elə həmin an güclü partlayış baş verdi, dünya gözündə qaraldı Xarı bülbülün... Ona çatmağa lap az qalırdı ki, igidin biri kökündən kəsilən ağac kimi yerə düşdü, Xarı bülbülün düz yanına düşdü... Gözünü son dəfə açdı igid, göz-gözə gəldi Xarı bülbül ilə, gülümsədi igid, arzusuna çatdı, xilas edibdi illərdir həsrətini çəkdiyi Xarı bülbülü... Dodaqlarından üç kəlmə söz süzüldü igidin "Sən azadsan, Xarı bülbül" və əbədi yumdu gözünü igid. Ürəyi dözmədi Xarı bülbülün, yavaş-yavaş əyildi igidə tərəf, tikanlı qönçəsiylə öpdü igidin alnından, "Şəhadətin mübarək, igid" dedi Xarı bülbül...

Artıq bir il ötür, Zəfərimizin bir ili, bütövlüyümüzün, tamlığımızın bir ili, kədərimizin qürurumuza qarışdığı bir il... İllərin həsrəti bitib, qovuşub elinə, obasına Xarı bülbül, amma qəmgindir, üzü heç gülmür, onu xilas etməyə canından keçib şəhid olanları, sağlamlığını itirənləri unuda bilmir Xarı bülbül. Qüruru, fəxri qədər ürəyindəki kədəri də böyükdür Xarı bülbülün...

Şəhid məzarlarına aparılır Xarı bülbül, məzar daşından qürurla ona baxan şəhidindən utanır Xarı bülbül, şəhid yaxınlarının acısını hiss etdikcə sıxılır, özünü günahkar bilir, boynunu bükür, gizlənmək istəyir ... Lakin! Sonra "Vətən sağ olsun" deyən şəhid atasının, "Bütün balalarım Vətənə qurbandır" deyən şəhid anasının, "Mənim atam qəhrəmandır" deyib göz yaşını silərək gülümsəyən körpələrin səsini eşitdikcə sıxıntısı keçir, qamətini düzəldir, qürurla boylanır ətrafa Xarı bülbül.

44 günlük Vətən müharibəsi başlayanda böyüyündən kiçiyinə qədər hər bir Vətən övladı

Vətən bağı al-əlvandır,
Var içində Xarı bülbül,

- deyə zümzümə etməyə başladıq, müharibə başlayan kimi ətri gəldi burnu - muza Xarı bülbülün, çünki Prezidentimizin düzgün siyasətinə, ordumuzun gücünə, xalqımızın birliyinə hamımız inanırdıq. Bilirdik ki, buradan geri dönüş yoxdur, bilirdik ki, geri dönüş olsa, bir daha əsla qovuşa bilməyəcəyik Qarabağımıza, üzünü görməyəcəyik Xarı bülbülün, ruhu şad olmayacaq Xan qızının, ömür boyu həsrət qalacağıq gözəl Şuşamıza... Bu düşüncələr bizi "bir" etdi, bu düşüncələr bizi "tək ürək" etdi, bu düşüncələr bizi dəmir yumruqlu etdi, bu düşüncələr bizi 30 il həsrət qaldığımız torpaqlarımıza qovuşdurdu. Zəfər çalındı, həsrət bitdi...

Qarabağın, Xarı bülbülün həsrəti bitdi, amma "oğul həsrəti", "yar həsrəti", "ata həsrəti", "dost həsrəti" bürüdü qəlbimizi, Bu həsrətin sonu yoxdur, müddəti yoxdur. Bu həsrət heç bitməyəcək, çünki illər keçəcək, amma şəhidlərimizin əziz xatirəsi qəlbimizə həmişəlik hakim olacaq. Bizi bütöv Azərbaycanın vətəndaşları edənləri, həsrətimizə qovuşduranları heç vaxt unutmayacaq, qəlbimizdə onları əbədi yaşadacağıq, unutmayacağıq ki, onlar daim yaşaya bilsinlər...

Və sən, Xarı bülbül, "Dəmir yumruq" əməliyyatının ilham mənbəyi, böyük bir xalqın 30 illik həsrəti. Bütöv olmağı bacaran bir millətin ən çox sevdiyi nadidə Çiçək... Biz səni daha inamla, daha etibarla qoruyacağıq ki... Sən heç solma, sən həmişə var ol, sən həmişə çiçəklən ki, qəlbimizə bir də heç vaxt həsrətin düşməsin, sən var ol ki, bizim yaddaşımız bizə dönük çıxmasın, unutmayaq səni bizə qovuşduranları, unutmayaq səni bizə qovuşdurmaq üçün çəkilən əziyyətləri... Unutmayaq ki, daim var ola bilək.

Şair olsaydım, Xarı bülbül, səni vəsf edən dəyərli şeirlər yazardım, səni nəzmə çəkər, şirin-şirin misralara sığdırardım səni... Amma mən müəlliməm, Xarı bülbül, dilim döndükcə səni şagirdlərimə anladacaq, səni xilas edənləri, Vətəni bütövləşdirənləri onların yaddaşına yazacaq, Vətənimin qeyrətli oğullarını unutdurmayacaq, əziz xatirələrini daim hörmətlə və qürurla yad edəcəyəm.

**Günel BAĞIROVA**
**Naxçıvan Qarnizonu**
**tam orta məktəbin müəllimi**

Hərbi texnikalar, silahlar

# Donanma üçün müasir silah




Hazırda Türkiyə milli donanmasının silahlanması üçün müasir silahların hazırlanması işini davam etdirməkdədir. Bu yaxınlarda ölkənin məşhur dövlət şirkətlərindən biri olan "Makine ve Kimya Endüstri" (MKE) şirkəti İDEF-2021 silah sərgisində yeni 76 mm-lik gəmi artilleriya qurğusunu və 20 mm-lik zenit artilleriya kompleksini təq - dim edib.

Müasir 76 mm-lik topun məhvetmə uzaqlığı 16 kilometrdir. Onun döyüş ehtiyatı 70 mərmidən ibarətdir. Silahdan dəqiqədə 80-ə qədər atəş açıla bilər.

Müasir 200 mm-lik zenit artilleriya kompleksi optik-elektron sensorla təchiz edilib. Lakin artilleriya kompleksi hədəflərin axtarışı və müşayiət edilməsi üçün radarla təmin edilməyib. MKE şirkətinin nümayəndəsinin verdiyi məlumata görə, müasir kompleks Türkiyə istehsalı olan "G" sinfindən olan freqatlarla təchiz edilən Genesis Advent dəniz (gəmi) döyüşü idarəetmə-informasiya sistemi ilə birgə işləyəcəyinə yönəlib.

Şirkət yaxın vaxtlarda 20 mm-lik artilleriya kompleksinin 2022-ci ilin sonuna qədər silahlanmaya qəbulunu həyata keçirməyi planlaşdırır. Kompleksin hədəfləri məhvetmə uzaqlığı 2 kilometrdir. Sursat ehtiyatı 1500 mərmidən ibarətdir və atəş tezliyi dəqiqədə 4000 atış təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan yığması Lüksemburq millisinə iki cavabsız qolla qalib gəlib



On doqquz yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Avropa çempionatının seçmə mərhələsi çərçivəsində qrupda sonuncu oyununu keçirib.

Lüksemburqda meydan sahibi komanda ilə qarşılaşan millimiz 2:0 hesabı ilə qələbə qazanıb.

U-19-un qollarını 23-cü dəqiqədə Mirmövsüm Canıyev və 77-ci dəqiqədə isə Mehrac Baxşəli vurublar.

Millimiz daha əvvəl keçirdiyi oyunlarda Belçika yığmasına 1:5, İspaniya seçməsinə isə 0:6 hesabı ilə məğlub olub.

## Avropa çempionatında qadın şahmatçılarımız İtaliya yığmasını məğlub ediblər



Sloveniyada keçirilən şahmat üzrə Avropa çempionatının altıncı turunda qadınlardan ibarət komandamız daha bir qələbə qazanıb.

Təmsilçilərimizdən Ülviyyə Fətəliyeva Daniela Movilyanuyaya qalib gəlib, Xanım Balacayeva Tea Queçi, Günay Məmmədzadə Marina Brunello, Gülnar Məmmədova isə Olqa Zimina ilə bərabər oyun nümayiş etdiriblər.

Beləliklə, İtaliya yığması ilə qarşılaşmada komandamız 2,5:1,5 hesabla qələbə qazanıb.

Qeyd edək ki, 6-cı turda kişilərdən ibarət komandamızın Ermənistan yığması ilə qarşılaşması heç-heçə ilə başa çatıb.

## Parapauerliftinqçilərimiz dünya çempionatına Gürcüstanda hazırlaşırlar




Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) pauerliftinq idman növü üzrə milli komandası baş məşqçi İlqar İbişovun rəhbərliyi altında Gürcüstanın Bakuriani şəhərində keçirilən beynəlxalq təlim-məşq toplantısında iştirak edir. Hazırlıq prosesi noyabrın 25-dək davam edəcək.

Qeyd edək ki, təlim-məşq toplanışından sonra millimizin üzvləri noyabrın 26-dan dekabrın 6-dək Tbilisidə keçiriləcək pauerliftinq üzrə dünya çempionatında güclərini sınayacaqlar.

Dünya çempionatında ölkəmizi Pərvin Məmmədov (49 kq), Zəhra Dadaşova (50 kq), Leyla Kərimova (+86 kq) və Nurlan Babacanov (97 kq) təmsil edəcəklər.

## Dünya çempionatı: karateçilərimiz komanda yarışında mübarizəni davam etdirirlər



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindəki karate üzrə dünya çempionatında komanda kata və kumite yarışları keçirilir.

Azərbaycanın kişilərdən ibarət kumite komandası yarışa Xorvatiyanı məğlub etməklə başlayıb. Hindistan komandasından sonra Yaponiya karateçilərinə də qalib gələn idmançılarımız növbəti mərhələdə Serbiya yığması ilə görüşəcəklər.

Qadın milli komandamız isə ilk görüşdə italiyalı rəqiblərinə uduzub.

Qeyd edək ki, turnirdə karateçilərimizdən İrina Zaretska (68 kq) finala yüksəlib, Asiman Qurbanlı (+84 kq) isə bürünc medal görüşünə vəsiqə qazanıb. Dünya çempionatında Azərbaycanı 17 karateçi təmsil edir.

**AZƏRTAC-ın**
**materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Fuad CƏFƏROV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 756 Nüsxə 4044 |